

# Zümzüməsi zəfər nəğməli...







**İkinci Qarabağ müharibəsində Azərbaycan Ordusunun şanlı qələbəsində şərəfli yeri olan qəhrəmanlardan biri də Gündüz Etibar oğlu Əliyevdir. Lerik rayonunun Loda kəndində boya-başa çatan bu Vətən sevdalısı müqəddəs bir yolda şəhid olanda ömrünün on səkkizinci ilini yaşayırdı. O, Vətənini canından əziz tutmaqla gələcək nəsillərə örnək olacaq bir tarix yazıb getdi. Milyonların ürəyində yuva qurduğu kimi, dövlət da Gündüzün döyüş meydanında göstərdiyi qəhrəmanlığını unutmadı. Qalib şəhidimiz ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə" və digər medallara layiq görüldü.**

Qısa həyat yolu yurduna, millətinə məhəbbət mücəssəməsinə dönən qəhrəman Gündüzün adı bir an belə lodalıların dilindən düşmür. Doğma kəndində onun xatirəsinə bulaq kompleksi də inşa edilibdir. Açılışına yüzlərlə ziyarətçi gələn bulaq kompleksinin üzərindən örtük Lerik Rayon İcra Hakimiyyəti başçısının səlahiyyətlərini icra edən Cəlil Baxşıyev, Milli Məclisin deputatı İqbal Məmmədov, şəhid valideynləri tərəfindən götürüldü və önünə düzülən gül-çiçək dəstələrinin sayı bilinmədi. Zümzüməsi zəfər nəğməli saf bulaq suyundan içlərin qəlbini qürur duyğular aldı. Bu sudan içə-içə sanki qəhrəman oğlunu öz bağrına basırdılar. Bir anın içində hər kəs uca dağların döşünə sığınan Loda kəndinin qartallı qayalarına dönüb şəhid oğluna doğru ucalırdı...

Tədbirin rəsmi hissəsində birinci sözü rayon icra hakimiyyəti başçısının səlahiyyətlərini icra edən Cəlil Baxşıyev dedi:

- Vətən müharibəsində Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında müzəffər Ordumuz 30 il düşmən əsarətində qalan əzəli yurd yerimiz olan Qarabağı 44 günə azad etdi. Bu möhtəşəm Zəfəri qəhrəman Vətən oğulların qanı, canı bahasına qazandıq. Xalqımız onların adlarını əziz tutmaqla, xatirələrini həmişə ehtiramla yad edir. Fəqət, şəhidlər ürəklərdə yaşamaqla, heç vaxt ölmürlər. Onların müqəddəs ruhları elə azad etdikləri Vətən səmasında dolaşır, o cümlədən Gündüz Əliyevin də...

"18 yaşında Vətən naminə canından keçən Gündüz Əliyev bulaq kompleksinin tikintisində əziyyəti olan hər kəsə təşəkkürümü bildirirəm. İkinci Qarabağ müharibəsində xalq-iqtidar birliyi və Müzəffər Azərbaycan Ordusunun rəşadəti hesabına möhtəşəm qələbə əldə etdik. Hərbi əməliyyatlarda Lerikin qəhrəman övladların şücaəti, misilsiz rəşadəti hamımızı qürur gətirir, onların həyat yolunu, qəhrəmanlıq nümunələrini öyrənmək və təbliğ etmək bizim müqəddəs borcumuzdur", - bu fikirləri isə mərasimə qatılan Milli Məclisinin deputatı İqbal Məmmədov çıxışda söylədi.

Şəhidin atası Etibar Əliyev, ona dərs deyən Əziz müəllim, döyüş yoldaşı Amil Novxanılı Gündüzün doğma Azərbaycana əsl övlad məhəbbətindən, dosta sədaqətindən, insanlığa, həyata olan sevgisindən, haqq savaşımızda göstərdiyi hünərindən qürurla danışdılar, eləcə ölkədə şəhid ailələrinə, müharibə veteranlara göstərilən yüksək diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıq etdilər.

Tədbirin axırında şəhidlərə və Vətən müharibəsində qələbəyə həsr olunmuş şerlər məktəblilərin ifasında dalğa-dalğa ətrafa yayıldı.

**Zəfər ORUCOĞLU,**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü**